İmperializmin ən mənhus qüvvəsi sayılan faşist işğalçıları dünyada birinci sosialist ölkəsinə qarşı xaincəsinə başladıqları bu müharibədə ucsuz-bucaqsız əraziləri zəbt etmək, ölkənin zəngin sərvətlərinə sahib olmaq, ölkədə yaşayan xalqları əsarət altına almaq iddiasında idilər.

Lakin bu ədalətsiz müharibədə haqq qələbə çaldı. Biz Böyük Vətən Müharibəsinin qanlı-qadalı illərindən uzaqlaşdıqca o günlərin qəhrəmanlıq salnaməsi daha əzəmətli, daha möhtəşəm görünür, sovet dövlətində birləşən xalqların bəşəriyyətə göstərdiyi misilsiz xidmət daha aydın hiss olunur. Bu qanlı müharibədə qazanılan qələbə insanlığı faşizim bəlasından xilas etdi.



# 9 MAY – ədalətin qələbəsi

*Bəşər tarixində müharibələr çox olmuşdur. Bu müharibələrin qanlı izləri, vurduğu yaralar yer üzərində heç vaxt sağalmır. Tarixdə ən sarsıdıcı müharibələrdən biri də II dünya müharibəsidir.*

Bu müharibədə qələbə naminə Azərbaycan xalqının övladları da misilsiz xidmət göstərmişlər. Müharibənin ilk günlərindən 600 mindən çox Azərbaycanlı övladı cəbhəyə könüllü getmək üçün ərizə vermişdir. Azərbaycan xalqı müharibə illərində sovet silahlı qüvvələrinin mühüm bir cəbhəxanası olmuşdur. İnsan qüvvəsi ilə yanaşı, həm iqtisadi, həm də sənaye cəhətdən Azərbaycanın qələbəyə xidməti əvəzsiz olmuşdur.

Artıq o illərdən çox ötmüşdür, faşizim üzərində qələbədən 60 il keçir. Bu möhtəşəm qələbənin respublikamızda layiqli keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 6 iyul 2004-cü il tarixli 303 saylı sərəncamı, habelə Mədəniyyət nazirinin 23 iyul 2004-cü il tarixli 285 saylı əmrini əldə əsas tutaraq müxtəlif kütləvi tədbirlər təşkil edilir.

Belə tədbirlər Gəncə Şəhər Mərkəzləşmiş Kitabxana Sistemində də ardıcıl olaraq keçirilir. Mərkəzi kitabxana və filiallarda Qələbənin 60 illiyinə həsr olunmuş kitab sərgiləri, şer gecələri, müharibə veteranları ilə görüşlər, xatirə gecələri və s. tədbirlər təşkil edilir.

Metodiki işlərin təşkili şöbəsi " 9 may- haqqın, ədalətin qələbəsi tövsiyə, biblioqrafiya şöbəsi "Qələbə-60 adlı biblioqrafik göstərici hazırlayıb filiallara kömək məqsədi ilə paylamışdır.

Mərkəzi kitabxanada və bütün filiallarda Qələbənin 60 illik yubleyinə həsr edilmiş "Qələbə-60, "Azərbaycan Böyük Vətən Müharibəsi illərində, "Vətən qəhrəmanları heç vaxt unudulmur başlıqlı kitab sərgiləri təşkil edilmişdir.

Mərkəzi kitabxananın oxu zalında "Böyük Qələbə-60 adlı ədəbi- bədii gecə, 2 №-li filial işçiləri 18 №-li məktəbin şagirdləri ilə birlikdə "Vətən mənə oğul desə nə dərdim adlı ədəbi- bədii kompozisiya, 1 və 6 №-li filiallarda müharibə veteranları ilə "Odlu illərin yadigarları adlı görüş, 9 №-li kitabxana işçiləri isə 37 saylı məktəbin şagirdləri ilə birlikdə "Vətən qəhrəmanlarını heç vaxt unutmur adlı ədəbi-bədii gecə, uşaq şöbəsində "Dünyaya sülh gərəkdir adlı səhərcik, balaca oxucularla Sovet İttifaqı Qəhrəmanı İ. Məmmədovun ev-muzeyinə səyahət, sonra isə qəhrəmanın abidəsi qarşısında şer saatı keçirilmişdir.

Bundan başqa biz şöbə və filiallarda oxucu konfransları, xatirə gecələri, görüşlər keçirməyi nəzərdə tutmuşuq. Tədbirlər keçirilərkən orta məktəblər, müharibə veteranları ilə əlaqə saxlayırıq, onların iştirakını təşkil edirik.

Bu möhtəşəm yubiley münasibəti ilə bütün veteranları ürəkdən təbrik edir, onlara can sağlığı diləyirik.

**F. Qədimova,**
***Gəncə şəhər MKS- nin direktor müavini***